## Modulların spesifikasiyası

| |
|---|
| **Modulun adı: Ana dilində ünsiyyət** |
| **Modulun kodu: 1** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə peşəkar ünsiyyəti təhlil etməyi, peşəkar məsələləri ilə bağlı şifahi və yazılı şəkildə ünsiyyət qurmağı və peşəyə dair yazılı materiallardan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Peşəkar ünsiyyəti təhlil edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Gələcək iş yerində kimlərlə ünsiyyət quracağını araşdırır. |
| 2. Gələcək iş yerinindən kənarda kimlərlə ünsiyyət quracağını araşdırır. |
| 3. Gələcək iş yerində istifadə edilən səciyyəvi ünsiyyət üsullarını təsvir edir. |
| 4. Gələcək iş yerində səciyyəvi ünsiyyət problemlərini qiymətləndirir. |
| **Təlim nəticəsi 2: Peşə məsələləri ilə bağlı şifahi ünsiyyət qurur.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəsindəki səciyyəvi ünsiyyəti təhlil edir. |
| 2. Peşə məsələləri ilə bağlı şifahi təqdimat verir. |
| 3. Səmərəli şifahi ünsiyyəti təsvir edir. |
| **Təlim nəticəsi 3: Peşə məsələləri ilə bağlı yazılı ünsiyyət qurur.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəsindəki səciyyəvi yazılı ünsiyyəti təhlil edir. |
| 2. Daxili ünsiyyətin yazılı nümunələrini təqdim edir. |
| 3. Səciyyəvi yazılı xarici ünsiyyətin nümunələrini təqdim edir. |
| **Təlim nəticəsi 4: Peşə məsələləri ilə bağlı yazılı materiallardan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəkar istifadə üçün müvafiq Azərbaycan mediasını müəyyən edir. |

| |
|---|
| 2. Müvafiq peşə məsələləri ilə bağlı yazılı materialları təhlil edir. |
| 3. Müvafiq peşə ilə bağlı materialı şifahi olaraq təqdim edir. |
| 4. Peşə ilə bağlı yazılı materialın təqdimatını qiymətləndirir. |

| |
|---|
| **Modulun adı: Xarici dildə ünsiyyət** |
| **Modulun kodu: 2** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə gündəlik ünsiyyət zamanı lazım olan sözlərdən sərbəst şəkildə istifadə etməyi bilir, özünü aydın ifadə etməyi, və eləcə də müxtəlif sahələrə uyğun terminologiyalar tətbiq etməyi bacarır. |
| **Təlim nəticəsi 1:** Gündəlik məsələlər, təhsil, iş, iş yerində sağlamlıq və təhlükəsizlik mövzularında ünsiyyət qurmağı və özünü ifadə etməyi bacarır. |
| **Qiymətləndirmə meyarları** |
| 1. Gündəlik həyatda öz fikirlərini sadə cümlələrlə ifadə edir. |
| 2. Təhsil mövzusu ətrafında olan mətnləri təhlil edir. |
| 3. İş həyatında istifadə olunan əsas anlayışlardan istifadə edərək öz sahəsini izah edir. |
| 4. İş yerində sağlamlıq və təhlükəsizlik qaydalarını xarici dildə sadalayır. |
| **Təlim nəticəsi 2:** Gündəlik məsələlər üzrə baza səviyyəsində ünsiyyət qurmağı bacarır. |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müxtəlif ölkələrə səyahətlə bağlı müzakirələrdə iştirak edir. |
| 2. Ətraf mühitlə bağlı ilkin anlayışları izah edir. |
| 3. Maliyyə məsələləri ilə bağlı mövzularda ünsiyyət qurur. |
| 4. Gündəlik xəbərlərlə bağlı fikir mübadiləsi aparır. |
| **Təlim nəticəsi 3:** Müasir texnologiya ilə bağlı terminləri bilir və diskusiyyalar aparmağı bacarır. |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ünsiyyətin müxtəlif növlərini tətbiq edir. |
| 2. Müxtəlif rəqəmsal texnologiyalardan məlumat almaq üçün istifadə edir. |
| 3. Texnologiyanın əhəmiyyətini izah edir. |

| |
|---|
| **Modulun adı: Hesablama əməliyyatları** |
| **Modulun kodu: 3** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə məsələlərin həllində riyazi düşüncə nümayiş etdirməyi, hesablamalar aparmağı, cədvəl və qrafiklər hazırlayıb istifadə etməyi, cəbr qanunlarını tətbiq etməyi və təsviri statistikadan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Məsələlərin həllində riyazi düşüncə nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Riyazi məsələlərin həllini necə qavradığını izah edir. |
| 2. Məsələlərin həllində nə zaman riyazi üsullardan istifadə edəcəyini müəyyən edir. |
| 3. Riyazi qanunlardan istifadə edərək məsələlərin həlli zamanı hansı texniki vəsaitlərdən istifadə olunacağını tədqiq edir. |
| 4. Praktiki məsələlərdə riyazi termin və modellərdən istifadə etmək üçün nümunələr verir. |
| **Təlim nəticəsi 2: Sadə hesablamalar aparır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İşdən əlavə vaxt üçün hesablanan bonusları və çıxılmaları nəzərə almaqla əmək haqqından xalis gəliri hesablayır. |
| 2. Faizləri və yenidən ödənişləri (qaytarılmaları) bank krediti üzrə hesablayır. |
| 3. Formul və reseptlər əsasında xammalın müxtəlif qarışıqlarını hesablayır. |
| 4. Sifarişlərlə əlaqəli tipik hesabatlar aparır. |
| 5. Digər tipik işlərlə bağlı hesablamaları yerinə yetirir. |
| **Təlim nəticəsi 3: Sadə qrafik və cədvəllər hazırlayır və məsələlərin həllində onlardan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Histoqramdan, nöqtəli diaqramdan, xətli qrafik və piktoqramdan alınan məlumatlardan istifadə edir. |
| 2. Nəzərdən keçirilən işdən alınan informasiyalara əsasən,  histoqramlar, nöqtəli diaqramlar, xətti qrafik və ya piktoqramlar qurur. |

| |
|---|
| 3. Exceldən istifadə etməklə 2-ci qiymətləndirmə meyarındakı diaqramları qurur. |
| **Təlim nəticəsi 4: Məsələlərin həllində sadə cəbri qaydaları tətbiq edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Mötərizələrdən istifadə etməklə ifadələri aydınlaşdırır və sadələşdirir. |
| 2. Tənliklər və riyazi ifadələrlə düzgün manipulyasiya edir və onları sadələşdirir. |
| 3. Müvafiq dəyişənlərdən istifadə edərək riyazi funksiyalar qurur. |
| 4. İndexslər qanunu tətbiq edir. |
| 5. Sadə xətti funksiyaları praktiki misallarla izah edir. |
| **Təlim nəticəsi 5: Sadə təsviri statistikadan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Çoxluğa qarşı seçim konsepsiyanı izah edir. |
| 2. Mərkəzin tendensiya üzrə məlumatlarını təsvir edir (moda, median, ədədi orta). |
| 3. Dispersiya ölçüləri olan məlumatları təsvir edir. |
| 4. Histoqram və diaqramları təsvir edir. |

| |
|---|
| **Modulun adı: İKT-dən istifadə** |
| **Modulun kodu: 4** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə işlə əlaqəli məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi, müxtəlif müvafiq mediadan istifadə etməklə peşəkarcasına əlaqə qurmağı və əməkdaşlıq etməyi, peşəkar rəqəmsal məzmun hazırlamağı, İT-dən təhlükəsiz şəkildə istifadə etməyi və texnologiyadan istifadə etməklə problemləri həll etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: İnternetdə məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq məlumat göstəricilərini (verilənlər), məlumat və rəqəmsal məzmunu müəyyən edir. |
| 2. Müvafiq məlumat göstəricilərinin, məlumat və rəqəmsal məzmunun keyfiyyətini dəyərləndirir. |
| 3. Rəqəmsal mühitlərdə məlumat göstəricilərini, məlumatları və rəqəmsal məzmunu idarə |

| |
|---|
| edir. |
| **Təlim nəticəsi 2: Sosial media vasitələrindən istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq rəqəmsal texnologiyalar vasitəsilə peşəkarcasına işləyir. |
| 2. Müvafiq rəqəmsal texnologiyalardan istifadə etməklə məlumat göstəricilərini, məlumat və rəqəmsal məzmunu paylaşır. |
| 3. Rəqəmsal texnologiyalar vasitəsilə öz işlərini yerinə yetirir. |
| 4. Müvafiq rəqəmsal texnologiyalar vasitəsilə peşəkarcasına davranır. |
| 5. Peşəkar şəbəkə vasitəsilə ünsiyyət qurur. |
| 6. Rəqəmsal kimliyi idarə edir. |
| **Təlim nəticəsi 3: Rəqəmsal məzmun hazırlayır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq formatlarda peşəkar rəqəmsal məzmunu hazırlayır. |
| 2. Yeni müvafiq məzmun hazırlanması üçün mövcud rəqəmsal məzmunu inteqrasiya edərək uyğunlaşdırır. |
| 3. Müəlliflik hüququ və lisenziyaların məlumat göstəricilərinə, məlumat və rəqəmsal məzmuna necə tətbiq edilməsini təsvir edir. |
| **Təlim nəticəsi 4: İnformasiya texnologiyalarından təhlükəsiz şəkildə istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq cihazları qoruyur. |
| 2. Şəxsi məlumat və məxfiliyi qoruyur. |
| 3. Cihazlardan istifadə edərkən sağlamlığını qoruyur. |
| 4. Cihazlardan istifadə edərkən ətraf mühiti qoruyur. |
| **Təlim nəticəsi 5: Sadə texniki problemləri həll edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq cihazları işlədərkən yaranmış texniki problemləri həll edir. |
| 2. Texnologiyalardan istifadə etməklə işlə əlaqəli müvafiq ehtiyacları müəyyən edərək, bunların texnoloji həlli yollarını seçir. |
| 3. Öz rəqəmsal bacarılarındakı çatışmazlıqları müəyyən edir. |

| |
|---|
| 4. Öz rəqəmsal bacarıqlarındakı çatışmazlıqları aradan qaldırmaq üçün inkişaf planını təqdim edir. |

| |
|---|
| **Modulun adı: Şəxsi inkişaf və karyera planlaşdırması** |
| **Modulun kodu: 5** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə özünü tanımağı və şəxslərarası münasibətləri tənzimləməyi, düşünməyi, problemləri həll edərək qərarları qəbul etməyi, karyera məqsədlərini müəyyən etməyi və müasir iş axtarma və müraciət üsullarınıdan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Özünü tanımağı və şəxslərarası münasibətləri tənzimləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Stresi idarə edir və emosiyaları tənzimləyir. |
| 2. Pozitiv düşünür və özünü qiymətləndirir. |
| 3. Empatiya qurur və dinləyir. |
| 4. Şəxslərarası münasibətləri effektiv idarə edir və mübahisələri həll edir. |
| 5. İnamlı ünsiyyət qurur. |
| **Təlim nəticəsi 2: Düşünməyi və problemləri həll edərək qərarları qəbul etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Məqsədlərini müəyyənləşdirir və qərarları qəbul edir. |
| 2. Problemləri həll edir. |
| 3. Tənqidi və yaradıcı düşünür. |
| 4. İcra edir və davamlılığı təmin edir. |
| **Təlim nəticəsi 3: Karyera məqsədlərini müəyyən edir və müasir iş axtarma və müraciət üsullarından istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Karyera anlayışının mənasını izah edir. |
| 2. Karyera məqsədlərinin müəyyən edilməsi yollarını araşdırır. |
| 3. Müasir iş axtarma və müraciət üsullarından istifadə edir. |
| 4. Peşəkar inkişafın üsul və mərhələlərinə tətbiq edir. |

| |
|---|
| **Modulun adı: Peşə etikası** |
| **Modulun kodu: 6** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə peşəkarlığın əsas prinsiplərini biləcək və vaxtdan səmərəli istifadə etməyi, qrup şəklində işləməyi və iş yerində mövcud davranış qaydalarını təhlil etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Peşəkarlıq prinsiplərini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəkarlıq anlayışının nə olduğunu müəyyən edir. |
| 2. Peşəkarlığın əsas kriteriyaları izah edir. |
| 3. Peşəkar davranışın əsas meyarlarını izah edir |
| 4. Peşəkarlığın karyera inkişafındakı rolunu dərk edir. |
| **Təlim nəticəsi 2: Vaxtdan səmərəli istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Vaxt anlayışını və onun əhəmiyyətinin nədən ibarət olduğunu sadalayır. |
| 2. Vaxtın idarə olunmasındakı əsas yanaşmaları təhlil edir. |
| 3. İdarəetmə funksiyaları və vaxtın idarə olunması arasında əlaqəni izah edir. |
| 4. Vaxtdan səmərəli istifadəyə mane olan əsas əngəlləri aradan qaldırma üsullarını sadalayır. |
| 5. Fərdi vaxt planlaşdırma üsullarını nümayiş etdirir. |
| **Təlim nəticəsi 3: Qrup daxilində səmərəli işləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Öz peşəsi ilə bağlı qruplarda necə işlədiyini izah edir. |
| 2. Səciyyəvi qrup işlərində qrupdakıların rollarını təsvir edir. |
| 3. Qrup işində öz şəxsi rolunu təhlil edir. |
| 4. Öz peşəsi ilə bağlı qrup işində problemlərin nümunələrini nəzərdən keçirir. |
| 5. 4-cü qiymətləndirmə meyarında müəyyən edilən problemlərin həllinə necə kömək edə |

| |
|---|
| biləcəyini təsvir edir. |
| **Təlim nəticəsi 4: İş yerində davranış qaydalarını təhlil etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Etik davranışın hansı mənanı ifadə etdiyini nümayiş etdirir. |
| 2. İş etikası anlayışını və fərdi etik davranışların nə olduğunu izah edir. |
| 3. Müəssisə və təşkilatlarda gündəlik etik davranış qaydalarını sadalayır. |
| 4. Ətraf mühiti bir işçi kimi necə qoruya biləcəyini təsvir edir. |
| 5. Müəssisə və təşkilatlarda davranış qaydalarının idarə olunması prinsiplərini müəyyənləşdirir. |

| |
|---|
| **Modulun adı: Sahibkarlıq** |
| **Modulun kodu: 7** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə sahibkarlıq ideyalarını müəyyənləşdirib qiymətləndirməyi, ideyaların həyata keçirilməsi üçün lazımi resursları müəyyənləşdirib toplamağı, və ideyaları həyata keçirilməsi yollarını göstərməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Sahibkarlıq ideyalarını, imkanlarını müəyyən etməyi və qiymətləndirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sahibkarlığın mahiyyətini izah edir. |
| 2. Sahibkarlıq fəaliyyəti üçün əlində olan imkanları müəyyən edir. |
| 3. Sahibkarlıq ideyalarını müəyyənləşdirir. |
| 4. Sahibkarlıq ideyasını qiymətləndirir. |
| **Təlim nəticəsi 2: Sadə biznes layihəsini hazırlayır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Biznes planın məqsəd və strukturunu izah edir. |
| 2. Marketinq planını hazırlayır. |
| 3. Satış və insan resurslarını planlaşdırır. |
| 4. İnvestisiya və maliyyə planını hazırlayır. |
| 5. Büdcəni planlaşdırır. |
| 6. Qeyri-müəyyənlik və risk hallarında necə qərar qəbul edəcəyini təsvir edir. |

| Təlim nəticəsi 3: Sahibkarlıq ideyalarını necə həyata keçirməli olduğunu göstərir. |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. Yaradılan müəssisənin hüquqi məsələlərini təsvir edir. |
| 2. Sahibkarlıq prosesində başqaları ilə səmərəli əməkdaşlıq üçün nə edəcəyini təsvir edir. |
| 3. Biznes plan hazırlanmasından sonrakı addımlarını müəyyən edir |

| |
|---|
| **Modulun adı: Estetika və mədəni özünüifadə** |
| **Modulun kodu: 8** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə Azərbaycan yazıçıları və rəssamlarının əsərlərini təhlil etməyi, Azərbaycan mədəniyyətini təqdim etməyi, iş şəraitində fikrini düzgün və mədəni tərzdə çatdırmaq üçün maraqlı bədii ifadə tərzi seçməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin əsas əsərlərini şərh edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Azərbaycanın 3 görkəmli yazıçısının əsərlərini təhlil edir. |
| 2. Azərbaycan musiqi sənətinin 3 görkəmli nümayəndəsinin yaradıcılığını təhlil edir. |
| 3. Azərbaycanın 3 görkəmli vizual rəssamının əsərlərini təhlil edir. |
| **Təlim nəticəsi 2: Dünya incəsənət nümunələrini və məşhur mədəniyyət və incəsənət xadimlərinin əsərlərini şərh edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Dünyaca məşhur 3 mədəniyyət sahəsini müəyyən edir. |
| 2. Mədəniyyət sahələri haqqında məlumatları təhlil edir. |
| 3. Seçilmiş mədəniyyət sahələrinin şifahi təqdimatını verir. |
| 4. Başqalarına mədəniyyət sahələrinin təqdim edilməsinə dair konstruktiv rəy verir . |
| 5. 3 mədəni sahənin yazılı təqdimatını hazırlayır. |
| **Təlim nəticəsi 3: Kreativlik və estetika anlayışlarını təhlil edərək onlardan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Estetika anlayışını təhlil edir. |

| |
|---|
| 2. Kreativlik anlayışını təhlil edir. |
| 3. Estetika anlayışından istifadə edərək kretiv ideyalar təqdim edir. |
| **Təlim nəticəsi 4: Etiket və nəzakət qaydalarını təhlil edərək onlardan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ölkəmizə xas nəzakət qaydalarını şərh edir. |
| 2. İş yerində etiket qaydalarını tətbiq edir. |
| 3. Ayrı-ayrı ölkələrdə istifadə edilən etiket və nəzakət qaydalarını təhlil edir. |

| |
|---|
| **Modulun adı: Fiziki tərbiyə** |
| **Modulun kodu: 9** |
| **Modulun ümumi məqsədi:** Bu modul tamamlandıqdan sonra tələbə tərbiyəvi prosesdə sağlamlığın yüksəldilməsi, peşə xəstəliklərinin qarşısının alınması, pis vərdişlər, fərdi fiziki inkişaf və sağlam fiziki həyat haqqında zəruri məlumatı biləcək və dövlət standartında müvafiq təlimlərlə nəzərdə tutulan fiziki standartları yerinə yetirmək üçün fərdi olaraq seçilmiş kompleks sağlamlıq və gimnastika məşğələlərini həyata keçirməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1**: **Hərəki vərdiş və bacarıqları formalaşdıran müxtəlif statik və dinamik hərəkətləri sadə üsullarla icra edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Hərəkətlərin sağlamlaşdırıcı və inkişafetdirici təsirini izah edir. |
| 2. Hərəkətlərin icra şəraiti və icra üsulunun təkmilləşdirilməsi barədə müzakirə aparır. |
| 3. Şəxsiyyətin hormonik inkişafını təsvir edir. |
| 4. Fiziki tərbiyə üzrə nəzəri bilikləri izah edir. |
| **Təlim nəticəsi 2: Fiziki tərbiyə prosesində intizam və rejim qaydalarına əməl edir, birgə fəaliyyət bacarıqları nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Aktiv hərəkətlərlə bağlı bacarıq və vərdişlərini nümayiş etdirir. |
| 2. Aktiv hərəkətlərin icrasında əlverişli üsullarından istifadə edir. |
| 3. Aktiv hərəkətlərinə nəzarət edir. |
| 4. Şəraitə uyğun ilkin tibbi yardım göstərir. |
| 5. Bərpaedici vasitələrdən səmərəli istifadə edir. |

| |
|---|
| **Təlim nəticəsi 3**: **İdman oyunlarını, o cümlədən milli idman oyunlarını və onların növlərini təqdim edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Fiziki hazırlığını artırmaq üçün aktiv hərəkətlərdən və xüsusi vasitələrdən müntəzəm istifadə edir. |
| 2. Yaş qrupuna müvafiq hərəkətlərə qadir olduğunu nümayiş etdirir. |
| 3. Hərəkətlərin icrası zamanı əlverişli metodlar tətbiq edir. |
| 4. Aktiv hərəkətlərə qadir olduğunu nümayiş etdirir. |

| |
|---|
| **Modulun adı: Çağırışaqədərki hazırlıq** |
| **Modulun kodu: 10** |
| **Modulun ümumi məqsədi:** Bu modul tamamlandıqdan sonra tələbə dövlət təhlükəsizliyinin tarixi və hüquqi əsasları, sıra və intizam nizamnamələrinin ümumi müddəalarını biləcəkdir. |
| **Təlim nəticəsi 1: Azərbaycan Respublikasının Silahlı Qüvvələrində istifadə olunan hərbi texnika və sursatlar haqqında zəruri məlumatlara malik olduğunu nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və inkişafı barədə məlumatları şərh edir. |
| 2. Vətənin müdafiəsində vətəndaş vəzifələrini sadalayır. |
| 3. Hərbi nizamnamələrin yerinə yetirilmə məsuliyyətini dərk edir. |
| 4. Sıra və intizam nizamnamələrinin ümumi müddəalarını şərh edir. |
| **Təlim nəticəsi 2: Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin nizamnamələrində təsbit olunmuş əsas müddəaları mənimsədiyini, tibbi yardım və mülki müdafiə bacarıqlarına, topoqrafik vərdişlərə yiyələndiyini nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müasir ümumqoşun döyüşü haqqında məlumatları şərh edir. |
| 2. Müasir döyüş vasitələrini təsvir edir. |
| 3. Topoqrafiya üzrə bacarıqlarını nümayiş etdirir. |
| 4. Fövqəladə hadisələr zamanı əhalinin mühafizəsi haqqında biliklərini təsnif edir. |
| 5. Mühafizə vasitələrindən düzgün istifadə edir. |
| 6. Radiasiyaya nəzarət və kimyəvi kəşfiyyat cihazlarından istifadə edir. |

| **Təlim nəticəsi 3: Mülki müdafiə, sıra təlimi və fiziki hazırlığa aid normativləri yerinə yetirir, onların icrası zamanı qrup və komanda tərkibində əlaqəli fəaliyyət göstərir.** |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. Sağlam həyat tərzi üzrə bilikləri əlaqələndirir. |
| 2. Sağlamlığın mühafizəsi haqqında ümumi müddəaları şərh edir. |
| 3. Yaralanma və bədbəxt hadisə zamanı zərərçəkənlərə ilkin tibbi yardım göstərir. |
| 4. Fövqəladə hadisələrdə zədələnmələrin profilaktikasını və ilkin tibbi yardım qaydalarını tətbiq edir. |
| 5. Radiasiya şüalanmaları və kimyəvi zədələnmələr zamanı ilkin tibbi yardımı yerinə yetirir. |

| **Modulun adı: Əmək, təhlükəsizlik və sağlamlıq qaydaları** |
|---|
| **Modulun kodu: 11** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə əməyin, ətraf mühitin mühafizə olunma qaydalarını, istehsalat sanitariyası, əmək gigiyenasıqaydalarını biləcək və mümkün təhlükələrin qarşısını almağı bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Zərgərlik emalatxanasında ətraf mühitin mühafizəsi və yanğınsöndürmə vasitələrinə dair ilkin tədbirləri bilir və həyata keçirməyi bacarır .** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müəssisədə olan yanğınsöndürmə vasitələrindən düzgün istifadə edir. |
| 2. Yanğın baş verərkən yanğın təhlükəsizliyinin əsas və fərdi ehtiyat tədbirləri ilə otaqlardan çıxma qaydalarını uyğunlaşdırır. |
| 3.Emalatxananın təxliyə planını tanıyır. |
| **Təlim nəticəsi 2: İlk tibbi yardım qaydalarını bilir və tətbiq etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müəssisədə ilk yardım dəstinin yerini tanıyır. |
| 2. Alınan xəsarətə görə ilkin tibbi yardımın ilkin göstərişini müəyyən edir. |
| 3. İlkin tibbi yardım qaydalarını tətbiq edir. |
| **Təlim nəticəsi 3: Kimyəvi maddələrin saxlanılma qaydalarını bilir və tətbiq etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Kimyəvi maddələri xüsusi şkafa yerləşdirir. |
| 2. Turşuların saxlanma qaydalarını izah edir. |
| 3. Turşuları su ilə qatılma qaydalarını göstərir. |
| 4. Quru toz halında kimyəvi maddələrdən istifadə edir. |
| **Təlim nəticəsi 4: Havalandırma qaydalarını bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Havalandırma avadanlıqlarından istifadə edir. |
| 2. Emalatxananın havalandırılmasını həyata keçirir. |
| 3. İş yerini düzgün təşkil edə bilir. |

| Təlim nəticəsi 5: Əmək gigiyenası haqqında bilir. |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. Əmək gigiyenası haqqında məlumat verir. |
| 2. Zərərli və təhlükəli amilləri təsvir edir. |
| 3. Əmək prosesini zərərli kateqoriyalara bölür. |

| Modulun adı: Zərgərliyin tarixi |
|---|
| **Modulun kodu: 12** |
| **Təlim nəticəsi 1: Azərbaycan zərgərlik məmulatlarının tarixini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Arxeoloji qazıntılar zamanı tapılan bəzək əşyalarını tanıyır. |
| 2. Eramızdan əvvəl bəzək əşyalarının hazılanma texnologiyasını təsvir edir. |
| 3. Zərgərlik sənətinin zəngin ənənəyə malik olması haqqında məlumat verir. |
| 4. Milli bəzək əşyalarını başqa ölkələrin bəzək əşyalarından fərqləndirir. |
| **Təlim nəticəsi 2: Orta əsrlər dövründə qədim zərgərlik məmulatlarının tarixini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Avropa zərgərik məktəbinin nümunələrini tanıyır. |
| 2. Orta əsr zərgərlərinin bəzək əşyalarını göstərir. |
| 3. Osmanlı imperiyasına aid olan bəzək əşyalarını şərh edir. |
| 4. Cənubi və Şimali Ameraka zərgərlik məktəbi haqqında məlumat verir. |
| **Təlim nəticəsi 3: 19-cu əsrdə yaranan zərgərlik brendləri haqqında bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Avropada fəaliyyət gösətərən brendləri tanıyır. |
| 2. Rusiyada fəaliyyət göstərən brendləri haqqında məlumat verir. |
| 3. Azərbaycanda 19-cu əsrin sonu 20-ci əsrin əvvəllində fəaliyyət göstərən zərgərlərin adlarını vurğulayır. |
| **Təlim nəticəsi 4: Sovet dövrünə aid (1922-1991) Azərbaycanın zərgərlik məktəbi haqqında bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bakı Zərgərlik zavodu fəaliyyəti haqqında məlumat verir. |

| |
|---|
| 2. Bakı Zərgərlik zavodunda istehsal olunan bəzək əşyalarını təsvir edir. |
| 3. Şəbəkə üslubunnda hazırlanmış bəzək əşyalarını sadalayır. |
| 4. Minalı bəzək əşyalarını tanıyır. |
| **Modulun adı: Bəzək əşyalarının layihələndirilməsi** |
| **Modulun kodu: 13** |
| **Təlim nəticəsi 1: Azərbaycan milli naxışlar haqqında bilir və çəkməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Buta milli naxışı çəkir. |
| 2. İslimi, vağvağı, kətəbə, spiral və s. milli naxışları çəkir. |
| 3. Milli naxışlardan müxtəlif kompozisiyalar hazırlayır. |
| 4. Müxtəlif naxılarla sintez edir. |
| **Təlim nəticəsi 2: Müxtəlif ölçü alətlərindən istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Xətkeşdən istifadə edir. |
| 2. Pərgah və transporterdən istifadə edir. |
| 3. Ştangenpərgahdan istifadə edir. |
| 4. Dairənin diametrini ölçür. |
| 5. Dairənin radiusunu tapır. |
| **Təlim nəticəsi 3: Müxtəlif növ bəzək əşyalarının layihəsini çəkə bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Kişi üzüyünün layihəsini hazırlayır. |
| 2. Qadın üzüyünün layihəsini hazırlayır. |
| 3. Müxtəlif növ qolbağların layihəsini hazırlayır. |
| 4. Kişi və qadın boyunbağlarının layihəsini hazırlayır. |
| 5. Qol düyməsi və qalstuk sancağı layihəsini hazırlayır. |
| **Təlim nəticəsi 4: Layihəyə əsaslanaraq ölçüləri dəqiq təyin etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Layihə üzərində dəqiq ölçüləri qeyd edir. |
| 2. Müxtəlif ölçü alətlərindən istifadə edir. |
| 3. Layihədə nəzərdə tutulan ölçüləri düzgün metala keçirir. |

| |
|---|
| 4. Dəqiq ölçü alətlərindən (mikrometr) istifadə edir. |
| **Modulun adı: Zərgərlikdə istifadə olunan materiallar** |
| **Modulun kodu: 4** |
| **Təlim nəticəsi 1: Zərgərlikdə istifadə olunan metallar haqqında bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Qara metalları tanıyır. |
| 2. Əlvan metalları təsvir edir. |
| 3. Qiymətli metalları seçir. |
| 4. Nadir metalları tanıyır. |
| 5. Müxtəlif ərintilər hazırlayır. |
| 6. Kimyəvi üsul ilə metalları ayırır. |
| **Təlim nəticəsi 2: Zərgərlikdə istifadə olunan daşlar haqqında bilir və seçməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Qiymətli daşları seçir. |
| 2. Yarımqiymətli daşları tanıyır. |
| 3. Organik mənşəli daşları tanıyır. |
| 4. Sintetik daşları seçir. |
| 5. Daşların taraşlanma (cilalaya) prosesini göstərir. |
| **Təlim nəticəsi 3: Zərgərlikdə istifadə olunan kimyəvi maddələr haqqında bilir və istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Nitrat turşusundan istifadə edir. |
| 2. Xlorid turşusundan istifadə edir. |
| 3. Sulfat turşusundan istifadə edir. |
| 4. Borat turşusunu tanıyır. |
| 5. Bura duzundan istifadə edir. |
| 6. Car Aragini ($HNO_3$+3HCl) hazırlayır. |
| **Təlim nəticəsi 4: Zərgərlikdə istifadə olunan odadavamlı materiallar haqqında bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Asbest adlanan materialı tanıyır. |

| |
|---|
| 2. Şamot adlanan material haqında məlumat verir. |
| 3. Odadavamlı gili tanıyır. |
| 4. Müasir odadavamlı materiallar haqqında danışır. |
| **Modulun adı: Zərgərlik məmulatları və bəzək əşyalarının hazırlanma texnologiyası** |
| **Modulun kodu: 5** |
| **Təlim nəticəsi 1: Hazırlanma prosesini həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Metalları və ərintiləri əridir. |
| 2. Metalları yayma alətindən (VALS) buraxır. |
| 3. Məftili hazırlayır. |
| 4. Metalları termik emal edir. |
| 5. Ştampla işləyir. |
| **Təlim nəticəsi 2: Yığıcı əməliyyatı həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Zərgərin iş yerini təşkil edir. |
| 2. Müxtəlif elementləri lehimləyir. |
| 3. Metalın üzərində yaranan oksid təbəqəni mexaniki və kimyəvi üsul ilə təmizləyir. |
| 4. Kəsici alətlərdən (qayçı, lobzik) istifadə edir. |
| 5. Metalın üzrəində lazımi ölçüdə dəlik açır. |
| 6. Hazırlanmış bəzək əşyalarını parıldadır. |
| **Təlim nəticəsi 3: Bəzək əşyalarını hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müxtəlif formada üzüklər hazırlayır. |
| 2. Müxtəlif növ sırğa modelləri hazırlayır. |
| 3. Müxtəlif növ kulon və broşları hazırlayır. |
| 4. Müxtəlif şəbəkə üslubunda modelləri hazırlayır. |
| 5. Qəlib tökmə üslubunda müxtəlif modelləri hazırlayır. |
| 6. Qiymətli və yarımqiymətli daşları bərkidir. |
| 7. Əşyaların üzərində yaranmış qüsurları aradan qaldırır. |
| **Təlim nəticəsi 4: Bəzək əşyalarını bədii emal etməyi bacarır.** |

| |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. Bəzək əşyalarını parıldadır. |
| 2. Maqqaşlama üsulu ilə əşyaları bəzəyir. |
| 3. Müxtəlif rəngli minalar ilə işləyir. |
| 4. Qarasavad üslubunda əşyaları bəzəyir. |
| 5. Qalvanik üsulu ilə bəzək əşyalarının üzərinə müxtəlif metalları (qızıl, gümüş, radium, mis) örtük edir. |
| **Modulun adı: Bəzək əşyalarının təmiri** |
| **Modulun kodu: 6** |
| **Təlim nəticəsi 1: Təmirə ehtiyacı olan əşyaları düzgün təmir edə bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Əşyadan asılı olaraq təmirin texnologiyasını düzgün seçir. |
| 2. Təmir üçün lazım olan ləhimlərin tərkibini düzgün təyin edir. |
| 3. Təmir üçün düzgün flüslardan istifadə edir. |
| 4. Təmirdən sonra əşyaları düzgün parıldadır. |
| 5. Lehimləmədən sonra əşyanı düzgün soyudur. |
| **Təlim nəticəsi 2: Üzükləri və sırğaları təmir etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Qadın üzüklərini təmir edir. |
| 2. Kişi üzüklərini təmir edir. |
| 3. Müxtəlif növ qadın sırğalarını təmir edir. |
| 4. Sırğaların üzərində tökülmüş daşları bərkidir. |
| 5. Təmirdən sonra əşyaları parıldadaraq yuyur. |
| **Təlim nəticəsi 3: Qolbaqların və boyunbağları təmir etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Qaşlı və qaşsız qolbaqları təmir edir. |
| 2. Müxtəlif modelli kişi qolbaqları təmir edir. |
| 3. Kişi boyunbağlarını təmir edir. |
| 4. Qaşlı boyunbağları təmir edir. |
| **Təlim nəticəsi 4: Qalstuk sancağı və qol düyməsini təmir etməyi bacarır.** |

| |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. Qalstuk sancağını təmir edərək lazımi elementlərini dəyişir. |
| 2. Qol düyməsinin müxtəlif detallarını dəyişir. |
| 3. Təmirə ehtiyac olan hissələri yenidən hazırlayır. |
| **Modulun adı: Qiymətli daşların təyini** |
| **Modulun kodu: 7** |
| **Təlim nəticəsi 1: Zərgərlikdə istifadə olunan daşların xüsusiyyətlərini bilir və təyin etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Zərgərlikdə istifadə olunan daşları qruplaşdırır. |
| 2. Qiymətli metalların siyahısını sadalayır. |
| 3. Yarımqiymətli daşları seçir. |
| 4. Organik mənşəli daşları tanıyır. |
| 5. Sintetik daşları tanıyır. |
| 6. Moos cədvəli haqqında məlumat verir. |
| **Təlim nəticəsi 2: Qiymətli daşlar haqqında bilir və seçməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Almaz haqqında məlumat verir. |
| 2. Brilliantı başqa daşlardan ayırd edir. |
| 3. Təbii zümrüdü başqa daşlardan seçir. |
| 4. Təbii sapfirləri tanıyır. |
| 5. Təbii yaqutları seçir. |
| **Təlim nəticəsi 3: Yarımqiymətli daşlar haqqında bilir və seçməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Füruzə və malaxit daşı haqqında məlumat verir. |
| 2. Topaz və ametist daşı haqqında danışır. |
| 3. Əqiq daşının müxtəlif növlərini tanıyır. |
| 4. Sirkon və fianit daşı haqqında məlumat verir. |
| 6. Nefrit daşının müalicəvi xüsusiyyətlərini vurğulayır. |
| 7. Yarımqiymətli daşları sintetik daşlardan ayırd edir. |

| |
|---|
| **Təlim nəticəsi 4: Organik mənşəli daşlar haqqında bilir və seçməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Kəhrabanın növlərini sadalayır. |
| 2. Dəniz və çay mirvarilərini seçir. |
| 3. Fil və mamont sümüyünü emal edir. |
| 4. Tıspağa qoruyucudan müxtəlif bəzək əşyaları hazırlayır. |
| 5. Ağ və qırmızı mərcandan öz yaradıcılığında istifadə edir. |
| 6. Daş kömürdən istifadə edir. |
| **Təlim nəticəsi 5: Sintetik və süni yetişdirilmiş daşlar haqqında bilir və onları ayırd etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sintetik brilliantları seçir. |
| 2. Sintetik korundları seçir. |
| 3. Süni mirvariləri təbii mirvarilərdən fərqləndirir. |
| 4. Təbii kəhrəbanı sintetik kəhrəbadan ayırd edir. |
| 5. Keramik daşları təbii daşlardan fərqləndirir. |
| **Modulun adı: Bəzək əşyalarının satışı** |
| **Modulun kodu: 8** |
| **Təlim nəticəsi 1: Topdan və pərakəndə satışı təşkil etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İstehsal olunmuş bəzək əşyalarını vətəndaşlara satır. |
| 2. Kütləvi sifarişləri hazırlayaraq topdan satışı təşkil edir. |
| 3. Müxtəlif satış nöqtələrinə və mağazalara istehsal olunmuş bəzək əşyalarını təqdim edir. |
| 4. Müxtəlif yarmarka və sərgilərdə öz məhsulunu satır. |
| **Təlim nəticəsi 2: İnternet və sosial media vasitəsilə satışı həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müxtəlif sosial platformalarda (instagram, facebook və s.) öz səhifəini açır. |
| 2. Sosial platformalarda öz məhsulunu keyfiyyətli təqdim etmək üçün keyfiyyətli foto və video çəkiliş edir. |

| |
|---|
| 3. Sosial platformalarda vətəndaşların suallarına cavab verir. |
| 4. Sosial platformalarda satılan bəzək əşyalarının ünvana çatdırılmasını təşkil edir. |
| **Təlim nəticəsi 3: Bəzək əşyalarının qablaşdırılmasını təşkil etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Üzüklər, sırğalar, qolbaqlar və boyunbağlar üçün müxtəlif növ qutuları (forma, rəng) alır. |
| 2. Bəzək əşyalarının üzərinə qiymətləri yapışdırır. |
| 3. Vətəndaşların istəyinə uyğun xüsusi sifarişlə qablaşdırmanı təşkil edir. |
| **Modulun adı: İstehsalat təlimi** |
| **Təlim nəticəsi 1. Emalatxanada təhlükəsizlik, ilk tibbi yardım, kimyəvi madələrin saxlanması qaydalarını bilir və riayət etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Yanğınsöndürmə vasitələrindən istifadə edir. |
| 2. İlk tibbi yardım göstərir. |
| 3. Kimyəvi maddələrin saxlanması qaydalarını göstərir. |
| **Təlim nəticəsi 2. Şəbəkə gül qolbağı hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Metalı əridir. |
| 2. Metalı valsdan və xətdən buraxır. |
| 3. Gül formasında elementlər hazırlayır. |
| 4. Doqquz ədəd gül hazırlayaraq bir-biri ilə birləşdirir. |
| 5. Gül qolbağının bağlanan  hissəsini hazırlayaraq birləşdirir. |
| **Təlim nəticəsi 3. Müxtəlif formalı qolbaqlar hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sünbül formalı qadın qolbağı hazırlayır. |
| 2. Kardinal formalı kişi qolbağı hazırlayır. |
| 3. Burma (tros) formalı qolbaqlar hazırlayır. |
| 4. Moruq qolbağı hazırlayır. |
| **Təlim nəticəsi 4.Müxtəlif formalı kişi üzüklərini hazırlamağı bacarır.** |

| Qiymətləndirmə meyarları |
| --- |
| 1. İçi fırlanan kişi üzükləri hazırlayır. |
| 2. Ensiz kişi üzüyü hazırlayır. |
| 3. Enli kişi üzüyü hazırlayır. |
| 5. Alyans üzüyü hazırlayır. |
| **Təlim nəticəsi 5. Müxtəlif formalı qadın sırğaları hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Uşaq üçün sırğalar hazırlayır. |
| 2. "Klips" adlanan sırğalar hazırlayır. |
| 3. "İngilis kilidi (zamoku)" adlanan sırğaları hazırlayır. |
| 4. "Qvozdik" adlanan sırğalar hazırlayır. |
| **Təlim nəticəsi 5. Müxtəlif növ daşları bərkitməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Kiçik ölçüdə olan daşları hazırlayır. |
| 2. İri ölçüdə taraşlaşmış olan daşları bərkidir. |
| 3. Kabaşon formasında daşları bərkidir. |
| 4. Nəqqaşlama üsulu ilə metalın üzərində naxışları çəkir. |
| **Modulun adı: İstehsalat təcrübəsi** |
| **Modulun kodu:** |
| **Təlim nəticəsi 1: Müxtəlif növ müasir istehsalat avadanlıqlarından istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Qaltovka aparatından istifadə edir. |
| 2. Ultrasəs aparatından istifadə edir. |
| 3. Par aparatındn istifadə edir. |
| **Təlim nəticəsi 2: Qalvanik avadanlığından istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Elektrolitləri hazırlayır. |
| 2. Əşyaları yağsızlaşdırır. |

| |
|---|
| 3. Qızıl suya salmağı nümayiş etdirir. |
| 4. Rodiumla örtməyi göstərir. |
| **Təlim nəticəsi 3: Qəlib tökmə avadanlığından istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Rezin modelləri kəsir. |
| 2. Şam modelləri hazırlayır. |
| 3. Gipsdən istifadə edir. |
| 4. Gümüşdən istifadə edir. |
| **Təlim nəticəsi 4: Cilalama və pardaxlama avadanlığından istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Zınparadan istifadə edir. |
| 2. Latun şotkadan istifadə edir. |
| 3. Əşyaları parıldatmağı nümayiş etdirir. |
| **Təlim nəticəsi 5: Əşyaları təmizləməyi bacarır.** |
| 1. Ultrasəs aparatı ilə əşyaları yuyur. |
| 2. Par aparatı ilə əşyaları təmizləyir. |
| 3. Xüsusi fenlərlə əşyaları qurudur. |